hesabat-2019.qxd 08.04.2021 12:48 Page 1

Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ

# XOCAVƏND

№ 01 (94) Təsisçi: Xocavənd Rayon İcra Hakimiyyəti Mart 2021-ci il

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müraciəti



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar.***

***Sonra dövlətimizin başçısı müraciət edib:***

- Əziz bacılar və qardaşlar, mən sizin hamınızı Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm! Bütün Azərbaycan xalqına cansağlığı, xoşbəxtlik arzulayıram!

Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, birbirimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Noyabrın 8-də Şuşanın azad olunması ilə bağlı müjdəni Azərbaycan xalqına verərkən demişdim ki, Şuşa, sən azadsan! Bu gün azad Şuşada biz öz milli bayramımızı - Novruz bayramını qeyd edirik. Şuşa 28 il əsarətdə idi. 28 il mənfur düşmən tərəfindən dağıdılırdı, məhv edilirdi. Şuşanın tarixi siması dağıntılara məruz qalırdı. Düşmən Şuşanı erməniləşdirmək istəyirdi. Şuşada Azərbaycan xalqının irsini silmək istəyirdi. Ancaq buna nail ola bilmədi. Bəli, Şuşa dağıntılara məruz qaldı, Şuşada tarixi abidələrimiz mənfur düşmən tərəfindən dağıdıldı. Ancaq Şuşa əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, Azərbaycanın milli ruhunu qorudu və bu gün Şuşada olarkən bir daha bunun canlı şahidi oluruq. Şuşa Azərbaycan xalqının ruhunu qoruya bildi və bizi gözləyirdi. Biz də gəlməli idik və gəlmişik. Ancaq gəlmək üçün güc toplamalı idik, gəlmək üçün hazırlıq işləri aparılmalı idi. Bütün istiqamətlər üzrə hazırlıq işləri aparılmalı idi və aparılırdı. Biz ölkəmizin inkişafını təmin etməli idik. Xalqımızın birliyini təmin etməli idik. Vətəndaş müharibəsindən çıxmış ölkə üçün, xalq üçün bu, o qədər də asan məsələ deyildi. Vətəndaş müharibəsindən sonra bu günə qədər ölkədə gedən proseslər xalqımızı vahid ideya uğrunda, vahid amal uğrunda, torpaqlarımızın azad edilməsi amalı uğrunda birləşdirdi. Biz bu milli birliyi, milli həmrəyliyi təmin edə bildik. Bu, olmasa idi, bu Qələbə də olmayacaqdı.

Biz Qarabağ münaqişəsi ilə bağlı həqiqətləri beynəlxalq müstəvidə dünya ictimaiyyətinə çatdırmalı idik və çatdıra bildik. Beynəlxalq təşkilatlarda fəal işləyirdik və bizə sərf edən, həqiqəti əks etdirən, beynəlxalq hüququ əks etdirən, ona əsaslanan vacib qərar-qətnamələri qəbul etdirə bildik. Bu, Qələbəmizin hüquqi əsası idi, haqq-ədalətin bərpasının hüquqi əsası idi. Biz iqtisadi güc toplamalı idik və topladıq. Son illər ərzində Azərbaycan qədər sürətlə inkişaf edən ölkə bəlkə də dünyada yoxdur. Biz hərbi güc toplamalı idik və bu istiqamət birinci dərəcəli vəzifə idi. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə hərbi xərclər hər zaman birinci yerdə idi və bunu mən deyirdim, bəyan edirdim ki, biz hərbi xərclərimizi bundan sonra da artırmalıyıq. Biz müharibəyə hazırlaşmalıyıq, hazırlaşırıq. Açıq deyirdim bütün dünyaya və deyirdim ki, əgər düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz düşməni qovacağıq. Belə də oldu.

Biz güclü ordu yaratmışıq. Peşəkar ordu yaratmışıq. Qəhrəman ordu yaratmışıq. Hərbçilərimiz ən yüksək qiymətə layiqdirlər. Biz müharibə dövründə şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah onların yaxınlarına səbir versin. Biz Şuşanı qan tökərək azad etmişik, Şuşa uğrunda ciddi döyüşlər gedirdi. Laçın dəhlizi boyunca işğalçıların qalıqları səpələnmişdi, yüzlərlə, bəlkə də minə qədər işğalçı Şuşa döyüşlərində məhv edildi. Hərbçilərimiz sıldırım qayalardan qalxaraq, dərədən-təpədən, Xocavənd meşələrindən, cığırlardan keçərək yüngül silahlarla Şuşaya gəldilər. Yüngül silahlarla, tapançalarla, süngü-bıçaqla mübarizə apardıq. Amma bizə qarşı burada toplardan, tanklardan istifadə olundu. Amma düşmən bizim gücümüzü gördü, iradəmizi gördü, milli ruhumuzu gördü və məğlub oldu. Şuşanın azad edilməsi Vətən müharibəsində xüsusi yerə malik olan hadisədir. Şuşa bizim hədəfimiz idi və biz bu hədəfə doğru gedirdik. Şuşaya qədər azad edilmiş bütün torpaqlarda Azərbaycan Ordusunun yerləşməsi Şuşanın azad olunmasını da şərtləndirmişdi. Cəbrayıl rayonu, Suqovuşan, Hadrut, Xocavənd rayonunun böyük hissəsi, Zəngilan, Füzuli, Qubadlı rayonları, Laçın rayonunun cənub hissəsi, Kəlbəcər dağları, Murov dağı və ondan sonra Şuşa. Müharibə zamanı 300-dən çox kənd və şəhər azad edildi, düşmən məcbur oldu, diz çökdü, təslim oldu və noyabrın 10-da kapitulyasiya aktına imza atdı.

Müharibənin ilk günlərindən mən demişdim ki, düşmən bizə tarix versin, düşmənin rəhbəri tarix versin, nə vaxt bizim torpağımızdan rədd olur və biz müharibəni dayandırmağa hazırıq. Yenə də sözümdə durdum, bizə tarix verilən kimi, kapitulyasiya akti imzalanan kimi müharibə dayandı və biz bir güllə atmadan, bir itki vermədən Ağdam, Kəlbəcər və Laçın rayonlarına da qayıtmışıq. Beləliklə, ərazi bütövlüyümüzü bərpa etdik. Yenə də deyirəm, biz hazırlaşmalı idik, Şuşa bizi gözləyirdi. Amma biz elə gəlməli idik ki, bu məsələni birdəfəlik həll edək.

Son illər ərzində mən həm çıxışlarda, həm müsahibələrdə dəfələrlə demişəm ki, bizə məsələnin yarımçıq həlli lazım deyil. Bu, nə deməkdir, Azərbaycan xalqı yəqin ki, gözəl başa düşür. Mən demişdim ki, hər şeyi vaxtında etmək lazımdır. Nəyi, nə vaxt, necə etmək lazımdır, bilirəm. Mənim üçün torpaqların azad edilməsindən daha ümdə vəzifə heç vaxt olmamışdır. Bütün prezidentlik dövrümü mən buna həsr etmişəm. Hər bir qərarın arxasında bu məqsəd, bu hədəf dayanmışdı - bu addım bizi qələbəyə yaxınlaşdıracaqmı, yoxsa yox. Deyirdim ki, hər birimiz hər gün qələbəni yaxınlaşdırmalıyıq. Mənim çıxışlarım var, onlar tarixdə qalır. Hər gün hər birimiz qələbəni yaxınlaşdırmalıyıq. Yaxınlaşdırdıq, hazırlaşdıq, gəldik düşməni məğlub etdik, məhv etdik. Gəlmişik və burada dayanmışıq. Müzəffər Ordunun Ali Baş Komandanı kimi dayanmışam qədim Azərbaycan torpağında və heç kim bundan sonra bizi buradan çıxara bilməz.

Şuşa bizim qədim şəhərimizdir. Erməni təbliğatı, saxta alimlər, fırıldaqçı siyasətçilər, beynəlxalq dairələr nə qədər desələr də xeyri yoxdur, tarix var. Pənahəli xan Şuşanın təməlini qoydu, Şuşanı tikdi, qurdu. Biz isə Şuşanı əsarətdən çıxardıq və xalqımıza qaytardıq, dövlətimizə qaytardıq. Şuşa qədim Azərbaycan şəhəridir, həmişə belə olub. Son 28 il ərzində mənfur düşmən nə qədər çalışsa da, Şuşanın Azərbaycan ruhunu, Azərbaycan görkəmini dəyişdirə bilməyib. Bəli, evlər sökülüb, tarixi abidələr sökülüb, məscidlər sökülüb, bir neçə eybəcər bina tikilib. Faktiki olaraq burada heç bir tikinti aparılmamışdır. Ancaq sovet vaxtından qalan o "xruşşovkalarda" məskunlaşmış 2 minə yaxın erməni yaşayırdı, onların da böyük hissəsi hərbçilər idi, onların ailələri idi. Əgər bu, erməni şəhəri idisə, niyə ermənilər gəlib burada yaşamadılar? Çünki ermənilərin tarixi yoxdur burada. Əgər erməni şəhəridirsə, niyə belə bərbad günə qoyublar? Niyə talayıblar Şuşanı, niyə 28 il ərzində bərpa etməyiblər? Bəs, hanı bunların xeyriyyəçiləri? Deyirdilər ki, xeyriyyəçilər bunu etdilər, onu etdilər, ora pul verdilər, bura pul verdilər. Hər il marafonlar keçirirdilər, on milyonlarla dollar pul yığırdılar. İndi bilinir ki, o pullar keçmiş rəhbərliyin cibinə gedirdi. Mən azad edilmiş torpaqlara dəfələrlə gəlmişəm. Burada olan səfalət bəlkə də dünyanın heç bir yerində yoxdur. Bəs, nə ediblər onlar? Hamısı yalan idi, saxta idi, tarixi necə saxtalaşdırıblar, reallığı da elə saxtalaşdırıblar. Onların şəbəkələri dünyanın müxtəlif paytaxtlarında fəaliyyət göstərir, saxta məlumat ötürür və bu saxta məlumat ətrafında sonra müzakirələr gedir və olmayan şeyləri reallıq kimi qələmə verirdilər.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır.

Şuşada olarkən insan Azərbaycan xalqının böyüklüyünü bir daha dərk edir. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq. Biz hətta o satqınlığı, o xəyanəti edən AXC-Müsavat cütlüyünün mənfur liderlərinə layiq olduqları cəzanı verməmişdik. Halbuki onlar istənilən cəzaya layiqdirlər. Biz bu vəziyyətlə barışmadıq və mən dəfələrlə deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu vəziyyətlə barışmayacaq. Siyasi, iqtisadi, hərbi, mənəvi istiqamətlərdə, gənc nəslin tərbiyə edilməsi istiqamətində məqsədyönlü siyasət aparılırdı və elə gənc nəsil yetişdi ki, canını fəda etdi torpaq uğrunda. Elə gənc nəsil yetişdi ki, öz qanı-canı bahasına torpağımızı düşmənin əlindən aldı. Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq. Bütün xalqımız bu Qələbəni yaxınlaşdırırdı və bütün amillər birləşərək bu müharibənin nəticələrini şərtləndirdi.

Bizim müharibəmiz - İkinci Qarabağ müharibəsi bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində öyrənilir. Biz XXI əsrin müharibəsini aparmışıq, düşməni məhv etmişik. Erməni ordusu yoxdur, biz onu məhv etmişik. Bu gün Novruz bayramını Cıdır düzündə qeyd edərkən qürur hissi ilə deyirəm: "Şuşa sən azadsan! ", "Şuşa Azərbaycandır! ", "Qarabağ Azərbaycandır! "

hesabat-2019.qxd 08.04.2021 12:48 Page 2



# Sözü imzası qədər qüvvətli olan lider!



Prezident İlham Əliyev həmişə çıxışlarında “mənim sözüm imzam qədər qüvvətlidir”- deyirdi. Şuşa səfəri Milli Liderin sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu. Prezident 2010-cu il noyabrın 1-də Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. 2021-ci ilin yanvarın 14-ü həmin vəd yerinə yetirildi. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı.

Separatçı rejimin nümayəndələri o vaxt demişdilər ki, ancaq bir halda Azərbaycan bayrağı Şuşada qaldırıla bilər, o da əgər Azərbaycan “Dağlıq Qarabağ respublikası”nı tanıyıb Dağlıq Qarabağda öz səfirliyini açsa. Amma sən saydığını say, gör Azərbaycan Ordusu nə sayır! Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycana ordusunun parlaq zəfəri bu iyrənc, təkəbbürlü ifadələrin sahiblərini qorxaqcasına susmağa məcbur edir.

Prezident çıxışlarının birində onu da demişdi ki, ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacaq.

Bu sözlər də artıq reallığa çevrilib. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Azərbaycan güc, əzm, iradə, cəsarət, mətanət, milli ruh hesabına tarixi ədaləti bərpa etdi. Azərbaycan ancaq öz gücü hesabına öz torpaqlarını azad etməli idi və bunu da bacardı. Son olaraq Prezidentin məşhur fikirləri ilə yazını yekunlaşdırım: “Biz bu müharibəyə hazırlaşırdıq və bunu gizlətmirdik. Düşmən qabağımızda diz çökməyə, kapitulyasiya aktına imza atmağa məcbur oldu. Alçaldıcı kapitulyasiya aktı tarixdə əbədi qalacaq”.

# Dövlətin inkişafına və cəmiyyətin rifahına xidmət edən təşəbbüs



“Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı proqramın təsdiq olunması dövlətin idarəolunmasında strateji planlaşmanın təcəssümüdür. Milli Prioritetlər proqramı dövlətin inkişafına və cəmiyyətin rifahına xidmət edən təşəbbüs olmaqla yanaşı, milli maraqlar və strateji planlamanın da vəhdətini təşkil edir. Risklərin azalmasına, sahələrin sürətli inkişafına, həmçinin istiqamətlər üzrə sahəvi prioritetlərin müəyyən olunmasına xidmət edən strateji idarəetmə metodu, eyni zamanda ölkəmizin gələcək inkişaf mənzərəsini də müəyyən edir”. Bu gün Azərbaycan sosial-iqtisadi və mədəni təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanınır. Hazırda dövlətin davamlı inkişafını təmin etmək üçün Azərbaycanda bütün zəruri amillər mövcuddur. Eyni zamanda, ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artıb, cəmiyyətdə dövlətçilik ənənələri güclənib, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilib. Əlbəttə ki, Vətən Müharibəsində əldə olunan qələbə ilə Azərbaycanda mahiyyət etibarı ilə yeni inkişaf mərhələsi başlanıb. Heç şübhəsiz ki, qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu və statusunu daha da möhkəmləndirəcək. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar isə 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Ona görə də, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiqlənmiş Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı proqram Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir.növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafında müəyyən olunmuş beş milli prioritetinin qorunması və reallaşdırılmasına xidmət etmək Azərbaycanda yaşayan hər bir şəxsin vətəndaşlıq vəzifəsi olmalıdır: “Çünki sözügedən Milli Prioritetlər dövlətin, cəmiyyətin və fərdlərin inkişafına xidmət edəcək. Reallaşdırılacaq iqtisadi islahatlar vətəndaşların sosial rifahını təmin edəcək, həmçinin inkişafdan hər bir vətəndaş bəhrələnəcək. Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amil olduğundan iqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli səviyyəsi təmin olunacaq. Milli Prioritetlər eyni zamanda Birləşmiş Millətlər Təşkilatının “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir. Bütövlükdə, 2030-cu ilə qədər həyata keçiriləcək Milli Prioritetlər dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyatı, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyəti formalaşdıracaq, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı yaranacaq, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış baş tutacaq və Azərbaycan təmiz ətraf mühit, “yaşıl artım” ölkəsinə çevriləcək.

# Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni binası istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışında iştirak ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xəstəxanada yaradılan şəraitlə tanış oldular. Azərbaycan Prezidentinin müvafiq Sərəncamı ilə 4 hektar sahədə inşa olunan 150 çarpayılıq tibb müəssisəsi Yaponiya, Koreya Respublikası, İtaliya və Türkiyə istehsalı olan ən zəruri avadanlıqla təchiz edilib. Xəstəxanada cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, dializ və digər şöbələr, həmçinin laboratoriyalar fəaliyyət göstərəcək. Bu binaya Abşeron Rayon Mərkəzi Xəstəxanasının nəzdində olan mərkəzi xəstəxana, Abşeron rayon poliklinikası, Abşeron rayon uşaq poliklinikası və təcili və təxirəsalınmaz tibbi yardım şöbəsinin köçürülməsi nəzərdə tutulub.

Yeni tibb müəssisəsində yaradılan şəraitlə tanışlıqdan sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verdi. Yeni tikilmiş xəstəxana dövlətin səhiyyə sahəsindəki fəaliyyətini əks etdirir. Son illərdə bir çox xəstəxanalar tikilib və onların da müəyyən standartlar var, həm memarlıq baxımından, həm də avadanlıqlarla təchizat baxımından. Bu xəstəxanada vətəndaşlara keyfiyyətli tibbi xidmət göstəriləcək. Çünki bütün müasir avadanlıqlar burada quraşdırılıb. Xəstəxananın inşası onu göstərir ki, bu sahədəki fəaliyyət ardıcıl şəkildə davam etdirilir.

## *Prezident İlham Əliyev:*

# “Son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib”

“Hesab edirəm ki, bütövlükdə artıq başa çatmaq üzrədir. Çünki ölkəmizin bütün bölgələrində xəstəxanalar fəaliyyət göstərir”. Bunu Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində Azərbaycanın bütün bölgələrində ən müasir standartlara cavab verən xəstəxana tikintisi proqramının icrasının davam etdirilib-etdirilməyəcəyinə dair suala cavabında deyib.

Prezident bildirib ki, son 17 il ərzində 750-dən çox xəstəxana ya yenidən tikilib, ya da ki, əsaslı şəkildə təmir edilib: “Səhiyyə sistemimizin bu xəstəxana və tibb müəssisələri fondu demək olar ki, indi ən yüksək standartlara cavab verir. Bundan sonra, əlbəttə ki, biz, ilk növbədə, səhiyyə sisteminin təkmilləşdirilməsi və tibbi xidmətin xüsusilə indiki dövrdə keyfiyyətini artırmaq üçün əlavə addımlar atacağıq”.

Dövlət başçısı qeyd edib ki, səhiyyə sisteminin maddi-texniki bazasının yaradılması, müasirləşdirilməsi başlıca vəzifə idi: ”Mən xatırlayıram, 2004-cü ildə Prezident vəzifəsinə seçiləndən sonra bəyan etmişdim ki, biz qara qızılı insan kapitalına çevirməliyik. Sözün düzü, o vaxt bizim qara qızılımızın həcmi o qədər də böyük deyildi, Bakı-Tbilisi-Ceyhan neft kəməri hələ inşa edilməmişdi, ancaq biz bütün bu işləri artıq proqnozlaşdıra bilirdik. Bilirdik ki, bizi böyük neft hasilatı dövrü gözləyir. Ona görə neftdən əldən edilən gəlirləri insan kapitalına yönəltmək mənim başlıca vəzifəm idi. Dediyim kimi, bu vəzifə artıq bütövlükdə icra edildi”.

Prezident deyib ki, bütün bölgələrdə ən müasir xəstəxanalar, poliklinikalar, diaqnostika mərkəzləri fəaliyyət göstərir: “Əgər biz buna nail olmasaydıq, son illərdə hər il 5 milyon insan tibbi müayinədən keçə bilməzdi. Hesab edirəm ki, bu da böyük nailiyyətdir. Çünki mən bəlkə də 100-dən çox, - bəlkə də daha çox, indi hamısını xatırlamıram, - xəstəxananın, tibb müəssisəsinin açılışında olarkən dəfələrlə bir məsələyə vətəndaşların diqqətini cəlb edirdim ki, mütləq hər bir insan ildə bir dəfə müayinədən keçməlidir. Artıq bunu demirəm, buna ehtiyac yoxdur. Çünki bu, həll olundu və artıq bir neçə ildir ki, kütləvi surətdə müayinədənkeçmə prosesi gedir. Yenə də deyirəm, dövlət hesabına 5 milyon insanı - ölkə əhalisinin yarısını tibbi müayinədən keçirmək böyük təşkilatçılıq və maliyyə resursları tələb edir. Azərbaycan nadir ölkələrdəndir ki, bu təşəbbüsü həm irəli sürüb, həm də bunu reallaşdırıb. Eyni zamanda, bildiyiniz kimi biz indi, icbari tibbi sığorta sisteminə keçmişik. Bu keçid də mərhələli yollarla həll olunub. Pilot layihələrin icrası bizə ilkin məlumatlar verib və məlumatlar da çox müsbət idi. Pilot layihələrlə əhatə olunmuş üç şəhərdə həm tibbi xidmətin keyfiyyəti artdı, eyni zamanda, vətəndaşların məmnunluğu yüksək səviyyədə idi. Ona görə biz artıq bu sistemə də keçmişik. Əgər müasir xəstəxana fondu olmasaydı, buna keçmək mümkün olmazdı. Yəni, biz hər şeyi ardıcıllıqla edirik və yəqin ki, gələn 1-2 il ərzində böyük xəstəxanaların tikintisinə artıq son qoyulacaq və daha çox səhiyyə sisteminin təkmilləşdirilməsi, müasirləşdirilməsi istiqamətində addımlar atılacaqdır”.

hesabat-2019.qxd 08.04.2021 12:48 Page 3



# Xocavənd qəsəbəsində 31 mart Soyqırımı qurbanlarının xatirəsi ehtiramla anıldı



31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar “Yeni Xocavənd” qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidənin önündə anım mərasimi keçirilib. Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov hüquq-mühafizə orqanlarının rəhbərləri ilə birlikdə Şəhidlərin xatirəsinə ucaldılmış abidəni ziyarət edib, ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının xatirələri ehtiramla yad olunub, ruhlarına dualar oxunub, abidənin önünə gül dəstələri qoyulub.

# 2017-ci ilin Fevral Şəhidlərinin xatirəsi yad edilib



Xocavənd qəsəbəsində 2017-ci ilin fevral ayının 24-dən 25-nə keçən gecə erməni silahlı qüvvələrinin növbəti təxribatının qarşısını alan zaman Şəhid olmuş kəşfiyyatçıların xatirəsinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə şəhidlərin ailə üzvləri, Müdafiə Nazirliyinin və Xocavənd Rayon İcra Hakimiyyətinin nümayəndələri, müəllim və şagirdlər iştirak ediblər. Tədbir iştirakçıları öncə Xocavənd qəsəbəsində Şəhidlərin xatirəsinə ucaldılmış abidənin qarşısına gül dəstələri qoyublar. Mərasimdə çıxış edən Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində törətdiyi irimiqyaslı təxribatın qarşısını alarkən şəhid olan hərbçilərimizin ailələrinə və yaxınlarına rayon ictimaiyyəti adından baş sağlığı vermiş, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyibdir. Başçı 2017-ci il fevralın 24-dən 25-nə keçən gecə baş vermiş hadisədən söz açaraq hərbiçilərimizin həmin əməliyyat zamanı göstərdikləri fədakarlıqların bir qəhrəmanlıq nümunəsi olduğunu bildiribdir. Daha sonra iştirakçılar Salakətin kənd tam orta məktəbində Şəhidlərin adı verilmiş siniflərdə olmuş, şagirdlər vətənpərvərlik ruhlu çıxışlar ediblər. Şəhid valideynləri şəhidlərin adları verilmiş siniflərin şagirdləri ilə söhbət edərək, övladlarının məktəb illəri haqqında xatirələrini danışıblar.

# 20 Yanvar faciəsi qurbanlarının əziz xatirəsi yad edilib



Faciənin 31-ci ildönümü ilə əlaqədar Xocavənd Rayon İcra Hakimiyyəti başçısının Sərəncamı ilə təsdiq edilmiş tədbirlər planına uyğun olaraq rayonun idarə, müəssisə və təşkilatlarında onli-ne anım tədbirləri keçirilib, saat 12:00-da faciə qurbanlarının xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Yanvarın 20-də Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov, hüquq-mühafizə orqanlarının rəhbərləri, rayon ictimaiyyəti, ağsaqqallar, gənclər, ziyalılar məsafə gözləməklə Yeni Xocavənd qəsəbəsindəki abidə kompleksi önünə tər çiçəklər düzüb, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.



# Qaradağlı faciəsindən 29 il keçir

***Ermənistan silahlı qüvvələri tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndinin işğal edilməsindən və dinc sakinlərə qarşı həyata keçirilən soyqırımı cinayətindən 29 il keçir.***

Erməni işğalçılarına qarşı 4 il qəhrəmanlıqla mübarizə aparan Qaradağlı kəndi 1992-ci il fevralın 17-də işğal edilərək yandırılıb, dinc əhaliyə qarşı soyqırımı törədilib. İşğal zamanı 118 nəfər əsir götürülüb, 33 nəfər güllələnib. Ümumilikdə əsir götürülənlərdən 68 nəfəri öldürülüb, 50 nəfəri böyük çətinliklərlə əsirlikdən azad edilib. Əsir götürülənlərdən 10 nəfəri qadın, 8 nəfəri məktəbli olub. Azad olunanların 5 nəfəri qadın olmaqla, 18 nəfər aldıqları sağalmaz yaralardan sonralar vəfat edib. Qaradağlıya Ermənistan silahlı qüvvələrinin həmləleri zamanı qətlə yetirilənlərdən 10-u qadın, 8-i məktəb yaşlı uşaq olub. Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilib. İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər, azərbaycanlılara məxsus tarixi, dini, mədəni abidələr və qəbiristanlıq dağıdılıb. Kəndin 800-ə yaxın sakini məcburi köçkün düşüb.

Qaradağlı faciəsinin ildönümü münasibətilə Beyləqan rayonu ərazisində məskunlaşan xocavəndli məcburi köçkünlər “Yeni Qaradağlı” qəsəbəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət ediblər. Qaradağlı kəndinin sakinləri, rayon ictimaiyyətinin nümayəndələri, şəhidlərin ailə üzvləri, keçmiş döyüşçülər abidə kompleksi önünə gül-çiçək dəstələri düzüb, şəhidlərin ruhuna ehtiramlarını bildiriblər. Anım mərasimində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev, Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov və İkinci Ordu Korpusunun komandiri General-mayor Mais Bərxudarov iştirak edib.

# Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib



26 fevral 2021-ci il tarixində Xocavənd Rayon İcra Hakimiyyəti Başçısı Aparatı, hüquq-mühafizə orqanları, ziyalılar, ictimaiyyət nümayəndələri, Qarabağ müharibəsi veteranları, gənclər və ağsaqqallar Yeni Xocavənd qəsəbəsindəki Şəhidlərin xatirəsinə ucaldılmış abidə önünə tər qərənfillər düzərək Xocalı faciəsi qurbanlarının xatirəsini dərin hüznlə yad etmişdir. Tədbir ölkəmizdə tətbiq edilən karantin qaydalarına riayət etməklə və sosial məsafə gözlənilməklə keçirilib. Allah şəhidlərimizə rəhmət eləsin.

hesabat-2019.qxd 08.04.2021 12:48 Page 4





## Birinci vitse-prezident Mehriban Əliyeva Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib

Təbrikdə deyilir:

"Əziz həmvətənlər!

Novruz bayramı münasibətilə sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, gözəl əhval-ruhiyyə, bol sevincli və xoşbəxt anlar arzulayıram. Təbriklərə və xoş arzulara görə hər kəsə minnətdaram. Sevginizə, səmimiyyətinizə, etimadınıza, hörmət və diqqətinizə görə çox sağ olun! Qoy, təbiətin oyanması və yenilənməsinin rəmzi olan bu bayram hər birinizin ocağınasağlıq, qarşılıqlı anlaşma və əmin-amanlıq gətirsin! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin, onlarındoğmavə yaxınlarına səbir versin. Uca Tanrı mərhəmətini xalqımızdan heç zaman əsirgəməsin!

*Dərin hörmət və sevgilərlə,*
*Sizin MEHRİBAN".*

## "DOSTLUQ" YATAĞI İLƏ BAĞLI SAZİŞ GEOSİYASİ ƏHƏMİYYƏTƏ MALİKDİR

### *"Azərbaycan və Türkmənistanın əməkdaşlığı regionun ümumi inkişafına əlavə imkanlar yaradacaq"*

Yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması hər iki ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Bununla da, Xəzərin karbohidrogen yataqlarının bölgüsü üstündə yaranmış ixtilaflar geridə qalır. Sözsüz ki, imzalanmış saziş regionun inkişafına müsbət təsir göstərəcək mühüm beynəlxalq sənəddir. Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır, şübhəsiz ki, " Dosluq" neft yatağı ölkələrimizi və xalqlarımızı bir-birinə daha da yaxınlaşdıracaq.

Bu Anlaşma Memorandumu Azərbaycanla Türkmənistan arasında yeni perspektivlər vəd edən əməkdaşlıq mühitinin formalaşması baxımından önəmlidir. Xəzər mehriban qonşuluq dənizi, əməkdaşlıq dənizidir. Xəzər ölkələrimiz arasında təbii sərhəd olmaqla yanaşı, bundan sonra da ölkələrimizi və xalqlarımızı ortaq maraqlarda birləşdirəcək əməkdaşlığın önəmli bir hissəsini təşkil edir. Bu mənada, Azərbaycan və Türkmənistanın əməkdaşlığı regionun ümumi inkişafına əlavə imkanlar yaradacaqdır.

Türkmənistanın sahib olduğu təbii ehtiyatlara xüsusi diqqət çəkən deputat qeyd edib ki, Türkmənistanın təbii qaz ehtiyatları ümumdünya ehtiyatlarının 9 %-ni təşkil edir və bu göstərici ilə Türkmənistan dünyada Rusiya, İran və Qətərdən sonra dördüncü yeri tutur. İndiyədək əsas istehlak bazarı Rusiya olub, rəsmi Moskva türkmən qazının həcmi və qiymətini özü müəyyənləşdirirdi. Aşqabad bu asılılığa son qoymaq üçün əvvəlcə Çin və İran bazarına çıxdı. İndi isə, Azərbaycanın vasitəsilə əsas istehlak bazarı olan Avropaya çıxış imkanını əldə edir. Bu isə neft və qaz ixracatçısı olan Azərbaycanın həm də tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq. Bu nöqteyi-nəzərdən, nəqliyyat ölkələrimiz arasında mövcud əməkdaşlıq əlaqələrinin strateji istiqamətidir. Nəqliyyat sahəsində əməkdaşlıq həm bizim ölkələr, həm də qonşu dövlətlər üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanlarının yaradılması layihələrini bir növ sinxronlaşdırıblar. Bu ölkələr arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq.

## Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının peşə bayramı münasibətilə tədbir keçirilmişdir



28 mart 2021-ci il tarixində Xocavənd qəsəbəsi Rayon İcra Hakimiyyətinin akt zalında Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının peşə bayramı münasibətilə tədbir keçirilib. Tədbir iştirakçıları öncə Vətən müharibəsi Şəhidlərinin məzarlarını ziyarət etmiş, ruhlarına dualar oxunmuşdur. Sonra tədbir iştirakçıları müstəqil Azərbaycanın qurucusu və memarı Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə ehtiramlarını bildirərək abidəsi önünə gül dəstələri qoymuşlar. Tədbirdə çıxış edən Xocavənd Rayon İcra Hakmiyyətinin başçısı Eyvaz Hüseynov Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti əməkdaşlarının peşə bayramları münasibəti ilə təbrik etmiş və xalqımızın milli maraq və mənafelərinin, təhlükəsizliyin, sabitliyin, əmin-amanlığın qorunması sahəsində fəaliyyətlərində uğurlar arzulamışdır. Başçı Azərbaycan Dövlət Təhlükəsizliyi orqanlarının tarixindən danışaraq, 1967-ci ilədək respublikanın təhlükəsizlik orqanlarına qeyri-azərbaycanlıların rəhbərlik etdiklərini bildirmişdir. Natiq həmin il ulu öndər Heydər Əliyevin Azərbaycan DTK-nin sədri təyin olunması ilə Azərbaycanlı kadrların hazırlanması istiqamətində ciddi addımların atıldığını diqqətə çatdırmışdır.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin Xocavənd rayon şöbəsinin rəisi Elçin Məmmədov Azərbaycan Respublikası Təhlükəsizlik orqanlarının yaranması haqqında ətraflı məlumat vermişdir.

Sonda DTX Xocavənd Rayon Şöbəsinin bur neçə əməkdaşı Xocavənd Rayonu İcra Hakimiyyəti başçısının "Fəxri Fərman"ı ilə təltif olunmuşdur.

## Vətən müharibəsi zamanı dünya ictimaiyyəti erməni vandalizminə şahidlik etdi

***Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb. Rayonlar dağıdılmış, viran qoyulmuşdur. Bu, bir daha onu göstərir ki, biz hansı bəlaya qarşı mübarizə aparmışıq. Bu gün bizim haqlı davamıza kölgə salmaq istəyən ermənipərəst, anti-Azərbaycan, islamofob dairələr bunu bilməlidirlər ki, mənfur Ermənistan bizim torpaqlarımızı zəbt edərək, işğal edərək bütün infrastrukturu dağıdıb. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Füzuli şəhərində bir dənə də bina yoxdur, bircə hərbi hissənin üç-dörd mərtəbəli binasıdır. Cəbrayıl şəhərinin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda sadəcə olaraq bir neçə ev qalıbdır, özü də yarıdağılmış vəziyyətdə.***

Beynəlxalq təşkilatların o bölgələrdə olan nümayəndələri də bunun üstünü örtürdülər. Bu təlançılıq, bu vəhşilik, bu düşmənçilik bütün dünyanın diqqətini cəlb etməlidir. Məhz buna görə biz oraya jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edirik. Daha da böyük sayda dəvət etməliyik ki, hər kəs görsün. Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik, erməni vəhşiliyini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır.

Onlar hesab edirdilər ki, bütün evlər yerlə-yeksan edilərsə, azərbaycanlılar o torpaqlara qayıtmayacaqlar. Ermənilər hesab etmirdilər ki, Azərbaycan o faciədən sonra ayağa dura biləcək, möhkəmlənə biləcək, zəngin təbii ehtiyatlarımızdan səmərəli şəkildə istifadə edib ölkəmizi inkişaf etdirə biləcək, bu torpaqları, əraziləri bərpa edə biləcək. Xocalı soyqırımı, günahsız insanların öldürülməsi, dinc əhaliyə qarşı qəddarlıq bu faşizmin təzahürüdür. Ürəklərində düşmənçilik toxumları həmişə var idi. İndi Azərbaycan onların belini qırıb, onların başını əzib, onların ordusunu məhv edib, onların ideologiyasını məhv edib, illər boyunca, onilliklər boyunca onların yetişdirdikləri ideoloji əsasları məhv edib.

Maddi-mənəvi, tarixi dəyərlərimizi ermənilər məhv edib. Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstlərini gülləbaran etmək üçün gərək adamın ürəyində nə qədər nifrət olsun, nə qədər düşmənçilik olsun, özü də kimə? O xalqa ki, sənə burada yer verib. Sən burada yuva salmısan. Sənin üçün yad olan torpağa, Qarabağa köçürülmüsən, Anadoludan, İrandan köçürülmüsən, gəlmisən, sənə burada qucaq açıb Azərbaycan xalqı, çörək verib. Sən çox sağ ol əvəzinə, 1992-93-cü illərdə bütün binaları dağıdırsan, məscidləri dağıdırsan, təhqir edirsən.

Müasir dünya ikinci belə vəhşilik görməmişdir.Əliyalın insanları yandırıblar, öldürüblər, uşaqları yandırıblar. Bütün binaları, məscidlərimizi dağıdıblar. Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. İllər keçdikcə bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək. O cümlədən erməni xalqı vaxt keçəcək, bizə minnətdar olacaq ki, onları bu bəladan xilas etmək istədik.



## Vətən müharibəsində şəhid olmuş və yaralanmış şəxslərin ailələrinə ərzaq bağlamaları verilib

Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi Vətən müharibəsində şəhid olmuş və yaralanmış şəxslərin ailələrinə, eyni zamanda Xocavənd rayon HİK-nin tərkibinə daxil olan ilk təşkilatlarda çalışan və Beyləqan rayon ərazisində məcburi köçkünlər üçün salınmış qəsəbələrdə məskunlaşmış aztəminatlı ailələrə ərzaq bağlamaları göndərib.

hesabat-2019.qxd 08.04.2021 12:49 Page 5



# Yeni adın mübarək, Xocavəndin igid oğlu!



Prezident İlham Əliyev Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adının verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamla Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu ehtiyatda olan baş çavuş Hüseynov İbad Mövsüm oğluna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Xocavənd rayon Muğanlı kənd sakini, türk dünyasının igid oğlu İbad Hüseynovu təbri kedirik!

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid ailələrini ziyarət edərək onları bayram münasibətilə təbrik ediblər




Yeni Azərbaycan Partiyasının Xocavənd rayon Təşkilatı və Xocavənd Rayon İcra Hakimiyyətinin əməkdaşları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid ailələrini ziyarət edərək onları bayram münasibətilə təbrik ediblər.

Azərbaycan qadını tarix boyu müqəddəs ana şərəfini uca tutaraq öz mübarizliyi ilə tanınmış, qadınlarımız ölkənin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında daim fədakarlıq nümayiş etdirməklə yanaşı döyüş meydanlarında da şücaət göstərmişdir.

Başda şəhid anaları, olmaqla 8 mart beynəlxaq qadınlar günü münasibəti ilə hər birinizi təbrik edirik, əziz xanımlar!

# Qarabağ kimi bir sevincimiz var artıq



Bu sevincin səbəbkarı başda Şəhidlərimiz, qazilərimiz olmaqla Azərbaycan əsgəri, müzəffər Ali Baş Komandan və o cümlədən xalqımızın birliyidir. Siyasi, iqtisadi ən əsası isə pisxoloji olaraq çökən Ermənistan dəmir yumruğun vurduğu zərbəni çətin unuda.

Müharibəli günlər geridə qaldı. İndi dövlətimiz müharibədən sonrakı dövrə köklənib. 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bəyan etdi ki, ənənəvi infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir, ona görə əsas diqqət işğaldan azad edilmiş torpaqlara yönəldilməlidir. Artıq Azərbaycanın prioriteti Qarabağa qayıdışdır. İşğaldan azad olunmuş bütün şəhər və rayonlar yenidən qurulacaq, 30 ilə yaxındır ki, doğma yurd həsrəti ilə yaşayan məcburi köçkünlər doğma ellərinə dönəcəklər. Azərbaycan dövləti onların layiqli həyatını təmin edəcək. Böyük Qayıdışa xidmət edən layihələrin icrasına isə artıq başlanılıb. İşğaldan azad edilmiş hər bir rayonumuz zəngin iqtisadi potensiala, həmçinin kənd təsərrüfatı baxımından böyük imkanlara malikdir. Həmin ərazilər işğaldan əvvəl Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının 35-40 faizə qədərini təmin edirdi. İşğal altında saxlamasına baxmayaraq, bu zona Ermənistan üçün istifadəsiz olub. Təkcə Qarabağ ərazisində 250 min hektardan çox məhsuldar torpaqların olmasına baxmayaraq, onun çox az qismindən istifadə edilib.

İndi vəziyyət dəyişib və xalqımız artıq öz torpaqlarına qayıdıb. Bu baxımdan perspektiv də əsas vəzifələrdən biri işğaldan azad olunmuş torpaqlarımızın kənd təsərrüfatına cəlb edilməsidir. Bu torpaqlarda üzümçülük, tütünçülük, pambıqçılıq, baramaçılıq, meyvə-tərəvəz, bostançılıq və heyvandarlığın inkişafı üçün böyük potensial var. Əlbəttə, bunun üçün birinci növbədə həmin ərazilər minalardan təmizlənməlidir. İndiyədək görülən işlər və büdcədən ayrılan vəsait göstərirki, işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması üçün böyük siyasi iradə var.

***Asim Rüstəm,***
***Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin aparıcı məsləhətçisi***



# *Azər Süleymanov:* "Biz tarixi ədaləti bərpa etdik"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin 15 mart tarixindəki Füzuli və Xocavənd rayonlarına səfəri hər bir Azərbaycan vətəndaşı üçün böyük sevinc və fərəh doğurdu. Cənab Prezidentin qeyd etdiyi kimi, Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Azərbaycan Ordusu yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad edib. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır. Bu uğurlu əməliyyatlarda Azərbaycan ordusu dünyanın ən müasir ordularını arxada qoyaraq müasir müharibə taktikasını gerçəkləşdirdi. Təsadüfi deyil ki, müharibə dövründə Azərbaycan ordusunun taktiki gedişləri qələbəmizi sürətləndirməklə yanaşı mülki ermənilərin də itkisini azaldaraq işğalçı erməni ordusu ilə döyüşdüyünü bir daha sübut etdi. Cənab Prezidentin martın 15-də Füzuli və Xocavənd rayonlarına səfəri zamanı bu məqama xüsusi diqqət yetirərək bildirmişdir ki, Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmayıb. Bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhalisi arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq.

Azərbaycan Ordusu Ali Baş Komandanın başçılığı ilə dünya hərb tarixində yeni bir səhifə açdığını sübut etməklə yanaşı, ərazi bütövlüyümüzün bərpasını təmin etməklə tarixi qələbəmizi bizə bəxş etdi. Bizim üçün torpağımızın hər bir parçası müqəddəsdir. Bu müqqədəs torpağımızın bütövləşməsi istiqamətində atılan addımların ən mühüm strateji tərəfləri düzgün və vacib hədəflərin ilkin olaraq azad edilməsi idi.

Bu strateji hədəflərdən biri də 9 oktyabr 2020-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi hərbi əməliyyatlar nəticəsində azad edilmiş Hadrut qəsəbəsidir. Hadrut qəsəbəsinin tez bir zamanda azad edilməsinin vacibliyini cənab Prezdent bu səfəri zamanında xüsusi ilə vurğuladı:

- Hadrut qəsəbəsinin işğaldan azad olunması Vətən Müharibəsində əldə olunan qələbədə böyük rol oynayıb. Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi. Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi.

Hərbi ekspertlərin də qeyd etdiyinə görə, Hadrut azad edilməsi üçün Azərbaycan ordusu cənub cəbhəsində irəliləyərək düşmənin gözləmədiyi istiqamətə-Hadruta yönəldi. Hadrutun azad edilməsi böyük ölçüdə müharibənin taleyini həll edən əməliyyat idi. Çünki məhz Hadrutu azad edəndən sonra Azərbaycan ordusunun xüsusi təyinatlıları həmin istiqamətdən Şuşaya doğru irəliləməyə başladı. Hansı ki, düşmən Şuşaya hücumun bu istiqamətdən olacağını heç ağlına da gətirməmişdi və onlar hücumu iki istiqamətdən-Laçın dəhlizindən və Qırmızı Bazar istiqamətindən gözləyirdi. Cənab Prezidentin səfər zamanı çıxışında bu məqama xususi diqqət yetirərək qeyd etmişdir ki, - Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq Şuşanı işğalçılardan azad etdik. Ona görə bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir.

Şanlı qələbəmizdən sonra əsas vacib məsələ erməni vandalları tərəfindən dağıdılan kəndlərin, qəsəbələrin, şəhərlərin yenidən qurulması, kominikasya xətlərinin bərpa edilməsidir. Görürük ki, İşğaldan azad olunmuş ərazilərdə infrastruktur layihələr fasiləsiz icra olunur. 15 mart tarixində Cənab Prezidentin Füzuli-Hadrut avtomobil yolunun təməl qoyma mərasimində iştirakı etmişdir. Bilirik ki, bu avtomobil yolunun inşası azad edilmiş ərazilərin bərpası üçün böyük əhəmiyyət daşıyır. Şanlı qələbəmizdən dörd ay zaman keçib. Bu zaman ərzində azad edilmiş ərazilərimizdə böyük quruculuq işləri başlamışdır və uğurla davam etməkdədir.

Cənab Ali Baş Komandan 15 mart səfərində dünya tarixçilərinə də yeni dərs verdi. Xüsusi ilə Azıx mağarasına getməyi dünyanın diqqətini bir daha bəşəriyyət üçün tarixi əhəmiyyəti olan bu abidəyə çəkdi. Bilirik ki, ermənilərin işğalı zamanı öz alçaq niyyətləri ilə bu abidəmizə də yanaşmışlar. Burada saxta qazıntılar aparılmışdır. Cənab Prezident bu məsələyədə xüsusi diqqət yetirərək ermənilər tarixi faktlarla tutarlı cavab verdi.

***Azər Süleymanov,***
***YAP Xocavənd Rayon Təşkilatının sədri***

hesabat-2019.qxd 08.04.2021 12:49 Page 6





# "Qanla yazılmış azadlıq"

***1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlədib.***

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizlik Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və daxili qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıb. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə – yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarında 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarından 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.

Sovet qoşunlarının hərəkətlərində 1945-1946-cı illərdə keçirilmiş və tarixə Nürnberq prosesi kimi düşmüş beynəlxalq tribunalda pislənilən bütün əlamətlər müşahidə edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanır. Ümumilikdə, Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də ümummilli lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib: "... Azərbaycanda baş vermiş hadisələri mən hüquqa, demokratiyaya zidd, humanizmə və... hüquqi dövlət quruculuğu prinsiplərinə zidd hesab edirəm... Dağlıq Qarabağ hadisələrinin ilkin mərhələsində ölkənin ali partiya siyasi rəhbərliyi tərəfindən vaxtında zəruri tədbirlər görülsə idi, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə çoxlu insan qırğını ilə nəticələnən hərbi müdaxilə üçün zəmin də yaranmazdı... Qırğın törədənlərin hamısı layiqincə cəzalandırılmalıdır!". Elə həmin il noyabrın 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında ümummilli lider Heydər Əliyev Yanvar faciəsini Azərbaycan xalqının suveren hüquqlarına qəsd kimi qiymətləndirib: "Mən belə hesab edirəm ki, 19-20 yanvarda baş vermiş bu faciə həm Sovet İttifaqının siyasi rəhbərliyinin, şəxsən Qorbaçovun böyük günahının nəticəsidir, onun diktatorluq meyillərindən əmələ gəlmiş bir haldır və eyni zamanda, Azərbaycan rəhbərlərinin xalqa xəyanəti və cinayətinin nəticəsidir. Mən belə fikirdəyəm ki, Böyük Vətən müharibəsi qurtarandan sonra Sovet İttifaqında, ölkənin daxilində — heç bir yerdə, heç bir regionda bu qədər, bu miqyasda qanlı qırğın olmamışdır. Bunu da edib Sovet ordusu. Və bunun nə qədər böyük miqyasda olmağını onunla da ölçmək olar ki, bu hərbi aksiyanın həyata keçirilməsi üçün SSRİ müdafiə naziri Yazov, SSRİ daxili işlər naziri Bakatin vaxtından qabaq gəlib. Bakıda oturub, bu əməliyyatlara rəhbərlik ediblər. Müharibə vaxtı hərbi nazir az-az cəbhəyə gedirdi, ancaq görün bu hərbi əməliyyata bunlar nə qədər böyük fikir veriblər, bunun miqyası nə qədər böyük olub ki, marşal Yazov gəlib Bakıda oturub və bu əməliyyata rəhbərlik edib. Deməli, bu, Azərbaycan xalqına qarşı göstərilən hərbi təcavüzdür, təhqirdir, Azərbaycan xalqının qarşısında cinayətdir".

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi. Sovet ordusunun amansızlığına və qəddarlığına, Bakıda fövqəladə vəziyyət tətbiq edilməsinə baxmayaraq, Azərbaycan xalqı yanvarın 22-də paytaxtın "Azadlıq" meydanında 20 Yanvar şəhidlərinin dəfni ilə əlaqədar matəm yürüşü keçirib. Şəhidlər xiyabanındakı dəfn mərasimində 2 milyona yaxın insan iştirak edib. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası çağırılıb və Bakı şəhərində fövqəladə vəziyyətin ləğv edilməsi haqqında qərar qəbul edilib, lakin xalqın qəzəbindən qorxuya düşən respublikanın əksər rəhbər vəzifəli şəxsləri həmin sessiyada iştirak etməyib.

Bu epoxal hadisə Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Məhz bu faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb.

1994-cü il martın 29-da ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib. Milli Məclisin həmin qərarında deyilir: "Azərbaycanda vüsət tapmış milli azadlıq hərəkatını boğmaq, demokratik və suveren bir dövlət yaratmaq amalı ilə ayağa qalxan xalqın inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq və belə bir yola qədəm qoyan hər hansı xalqa sovet hərb maşınının gücünü nümayiş etdirmək məqsədilə 1990-cı il yanvarın 20-də Sovet Silahlı Qüvvələrinin Bakı şəhərinə və respublikanın bir neçə rayonuna yeridilməsi, nəticədə haqq və ədalətin müdafiəsi naminə küçələrə çıxmış silahsız adamların qəddarcasına qətlə yetirilməsiAzərbaycan xalqına qarşı totalitar kommunist rejimi tərəfindən hərbi təcavüz və cinayət kimi qiymətləndirilsin".

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur. Hər il faciənin ildönümü izdihamlı ziyarətlərlə müşayiət edilir, xalq istiqlal fədailərinin məzarlarına faciənin simvoluna çevrilmiş al qərənfillər düzür, onları qürurla anır, qatillərini lənətləyir, bu faciəni törədənlərə dərin nifrətini bildirir.

Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn

# Postmüharibə dövrü yeni imkanlar açır



"Regionun unikal inkişafı üçün bu gün unikal imkan yaranıb. Biz və bizim bir çox tərəfdaşlarımız hesab edir ki, müharibə başa çatıb. Biz artıq kitabın o səhifəsini bağlamalı və gələcəyə baxmalıyıq". Bunu Azərbaycan Prezidenti İlham Əliyev bu gün keçirdiyi mətbuat konfransında deyib. "Nikbinliyə digər səbəb olan amil odur ki, qonşularımız da bizim fikirlərimizi bölüşür və regionun gələcək inkişafı ilə bağlı aramızda fikir ayrılığı yoxdur. Türkiyə, Rusiya və İran rəhbərliyi ilə söhbətlərim olub. Məsləhətləşmələr və təmaslar olub, faktiki olaraq tam yekdil fikir sərgiləyirik ki, biz bu imkandan maksimum səmərə ilə istifadə etməliyik. Postmüharibə dövrü yeni imkanlar açır", - dövlət başçısı əlavə edib. Prezident bildirib ki, bu gün Ermənistan sözdə bu mövqedədir:

"Çünki gedən məsləhətləşmələrdə bəzi fikirlər ortaya atır ki, onlar qəbul edilən deyil. Əgər Ermənistan bu məsələlərdə eyni yanaşmada olarsa Ermənistan da gedən proseslərin tərkib hissəsi ola bilər. Olmasa biz onsuzda planlaşdırılan məsələləri həll edəcəyik. Heç kəs bizi dayandıra bilməz. Yaxın tarix də göstərir ki, nəyi hədəfləmişik ona da çatmışıq. Sadəcə olaraq Ermənistan növbəti dəfə bu tarixi şansı itirə bilər. Necə ki, 90-cı illərdə inanmırdılar ki, biz bütün layihələri icra edəcəyik. İndi də belə fikirdədirlərsə yenə eyni aqibətlə üzləşəcəklər. Biz əməkdaşlığa hazırıq və hesab edirik ki, bu əməkdaşlıq bölgədə uzun müddətli sülhün əsas təminatçısı ola bilər". Prezident İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransının da ana xətti Azərbaycanın İkinci Qarabağ müharibəsindəki qələbəsi idi. İlham Əliyev verilən suallara cavablarında bir daha Azərbaycanın hərbi qələbəsini və eləcə də müharibədən sonrakı proseslər barədə vəziyyəti həm Azərbaycan, həm də xarici auditoriyanın diqqətinə çatdırdı. İşğal olunmuş torpaqlarımızın azad edilməsi Azərbaycanın dövlət siyasətinin prioriteti idi. Ona görə də respublikamızın xarici siyasətində, bütün dövlətlər və beynəlxalq təşkilatlarla əlaqələrdə torpaqlarımızın işğal altında olması daim diqqət mərkəzində saxlanılıb. Ermənistanın işğal siyasətinin ifşa edilməsi istiqamətində müxtəlif səviyyələrdə sistemli və ardıcıl işlər həyata keçirilib. Prezident İlham Əliyev bütün xarici səfərləri, eyni zamanda Bakıya gələn bütün dövlət və hökumət başçıları ilə görüşləri, beynəlxalq təşkilatların tədbirlərində, konfranslarda çıxışları zamanı diqqəti Dağlıq Qarabağ probleminə, Ermənistanın işğalçılıq siyasətinə yönəldib. Azərbaycan heç vaxt beynəlxalq təşkilatların bu məsələdəki ikili standartları ilə razılaşmadı, bir sıra siyasi dairələrin işğalla barışmağa yönəlmiş təşəbbüslərini yaxına buraxmadı və Prezident İlham Əliyevin hər zaman dediyi kimi, torpaqlarını güc yolu ilə işğaldan azad etdi. Mətbuat konfransında İlham Əliyevin dediyi kimi, indi Azərbaycan yeni reallıq yaradıb və Ermənistan da bununla barışmalıdır: "Otuz il ərzində bu məsələ ilə məşğul olan beynəlxalq qurumlar, eyni zamanda ayrı-ayrı ölkələr bizə açıq, yaxud da qeyri-rəsmi mesajlar göndərirdilər ki, reallıq var, Azərbaycan müharibədə məğlub edilmiş tərəfdir, siz reallıqla barışın. Çalışın ki, bu reallıqdan özünüz üçün maksimum məqbul variant seçin, yəni pis variantla daha pis variant arasında. Biz isə bildiyiniz kimi, belə çağırışları hər zaman rədd edirdik, öz mövqeyimizdən bir addım belə geri atmırdıq və mən bunu açıq bəyan edirdim. İndi isə mən deyirəm ki, yeni reallıq yaranıb və bu reallığı biz yaratdıq. Bu reallıqla Ermənistan və eyni zamanda bütün başqa ölkələr barışmalıdırlar, hesablaşmalıdırlar". İlham Əliyevin dünyanın diqqətinə çatdırdığı bir məsələ də vardı: dövlət başçısı həmişə bəyan edirdi ki, sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan beynəlxalq hüquqa söykənərək işğal olunmuş torpaqlarını güc yolu azad edəcək. Proseslər isə göstərirdi ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarını azad etmək fikrindən çox uzaqdır. Bunu Ermənistanın danışıqlar prosesindəki əsas bəndlər üzrə məsələlərdən müxtəlif bəhanələrlə qaçması, işğal olunmuş ərazilərdə yer adlarını dəyişdirməsi, xarici ölkələrdən erməniləri Dağlıq Qarabağ bölgəsinə cəlb edərək onları qanunsuz məskunlaşdırması aydın şəkildə təsdiq edirdi. Son dövrlərdə isə Ermənistanın hərbi-siyasi təxribatları daha da artmışdı. Paşinyanın keflənib Şuşada yallı getməsi, qondarma rejimin andiçmə mərasiminin Şuşada keçirilməsi, habelə qondarma rejimin "parlamentinin" Şuşaya köçürülməsi göstərirdi ki, Ermənistan danışıqlar prosesində, sadəcə, imitisiya edir. Bütövlükdə, Paşinyanın sərsəmləmələri, Tovuz hadisələri, Azərbaycana diversiya qrupun göndərilməsi və digər təxribatçı əməllər danışıqları mənasız hala gətirmişdi.

Azərbaycan isə illər ərzində danışıqlara paralel olaraq həm də hərbi qüdrətini artırmaqla məşğul oldu. Ordumuzun döyüş imkanları ən müasir silah-sursatlarla gücləndirildi. Yeni nəsil döyüş vasitələri ordumuzun arsenalına cəlb edildi. Xarici himayədarlarına arxalanan Ermənistanın hərbi-siyasi rəhbərliyi elə zənn edirdi ki, istənilən təxribata rəğmən, Azərbaycan müharibə etməyəcək. Erməni ideoloqları düşünürdülər ki, zaman keçdikcə Azərbaycan işğal faktı ilə barışacaq. Lakin 44 günlük müharibə düşmənin bütün iddialarını alt-üst etdi. Azərbaycan elə havadarlarının gözü önündə Ermənistana tarixin ən unudulmaz dərsini verdi. Münaqişənin hərbi həllinin olmadığını deyən təşkilat və dövlətlərin gözü önündə İlham Əliyev güc yolu ilə işğal olunmuş torpaqları azad etdi.

***Nicat Şirinov,***
***İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini***

hesabat-2019.qxd 08.04.2021 12:49 Page 7



# Azərbaycanın hər çətin və xoş günündə yanında olan qardaş ölkə Türkiyəyə ürəkdən təşəkkür edirik



27 sentyabr 2020-ci ildə Azərbaycan öz tarixi torpaqlarını haqlı olaraq geri qaytarmaq uğrunda Vətən müharibəsinə başladı. 44 gün ərzində baş verən müharibə zamanı xalqımız böyük vətənpərvərliklə Prezidentimizin "dəmir yumruğunun" altında birləşdi. İgid əsgərlərimizin şücaəti, qəhrəmanlığı və dövlət başçısının düzgün siyasəti nəticəsində əzəli torpaqlarımız öz sahiblərinə qaytarıldı. Dünya ölkələrinin heç bir etirazına, təzyiqinə baxmadan bu şanlı və haqlı müharibədə yanımızda olan qardaş ölkəmiz Türkiyə Cümhuriyyəti hər an yanımızda oldu. Biz xalq olaraq qardaş ölkəmizə təşəkkür edirik.

Odun-alovun içinə özünü atan Türkiyəli Fulya Öztürk haqq savaşında dünyaya həqiqəti çatdırmaqla xalqımızın sevimlisi olmuşdur. Var olsun Azərbaycan-Türkiyə qardaşlığı!

***Cəmalə Əliyeva,***
***Xocavənd rayon Nərimanlı kənd tam orta məktəbinin Azərbaycan-dili və Ədəbiyyat müəllimi***

# İqtisadi tərəqqi ölkənin inkişafını və xalqın rifahını təmin edir



***Heç şübhəsiz, iqtisadi tərəqqi ölkənin inkişafını və xalqın rifahını təmin edir. Dövlətin iqtisadi inkişafından qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyi təmini üçün güclü potensial yaratmışdır. Ölkədə yaşanan siyasi sabitlik, təhlükəsizlik mühiti və davamlı iqtisadi inkişaf xalqın rifahını təmin edən əsas taleyüklü amillərdir.***

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

***Bəhruz Məmmədov,***
***Memarlıq və tikinti şöbəsinin aparıcı məsləhətçisi***

# Xocavənd rayonunda əhalinin COVID-19-a qarşı peyvənd olunmasına başlanılıb



Peyvəndin əks təsirinin olmadığını bilən tibb işçiləri ilk olaraq bu aksiyaya özləri könüllü qoşulublar. Xocavənddə ilk gündə təhlükəsizliyinə və effektivliyinə görə seçilən "Coronovac" vaksini ilə 130 nəfər tibb işçisi peyvənd olunub və onlar özlərini yaxşı hiss edirlər.

Qeyd edək ki, Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası" təsdiq edilib. Strategiyaya uyğun olaraq vaksinasiyanın birinci mərhələsində səhiyyə işçiləri, 65 yaşdan yuxarı şəxslər və hüquq-mühafizə orqanları tərəfindən əks-epidemik tədbirlərə cəlb olunan heyət peyvəndlənəcək. Strategiyanın əsas məqsədi ölkədə yayılmış koronavirus pandemiyasının qarşısının alınmasına, virusa yoluxma və ölüm səviyyəsinin aşağı salınmasına nail olmaqdır.

Vaksinin əhəmiyyəti immuniteti gücləndirmək yolu ilə xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ölüm halının qarşısını almaq və nəticədə səhiyyə sisteminə düşən yükü azaltmaqdan ibarətdir.

# *"Erməni vəhşiliyinin nümunəsi:* Xocalı soyqırımı" mövzusunda videokonfrans keçirildi





25 fevral 2021-ci il tarixində Xocavənd, Şuşa, Xocalı, Laçın, Qubadlı, Kəlbəcər, Zəngilan, Füzuli, Cəbrayıl və Ağdam rayonlarının gənclər və idman idarələrinin təşkilatçılığı ilə Xocalı soyqırımının 29-cu ildönümünə həsr olunmuş "Erməni vəhşiliyinin nümunəsi: Xocalı soyqırımı" mövzusunda videokonfrans keçirildi.

Erməni cinayətkarlarının Azərbaycan xalqına, habelə bəşəriyyətə qarşı törətdiyi bu qətliam barədə gənclərin ətraflı məlumatlandırılması, soyqırım qurbanlarının əziz xatirəsinin yad edilməsi məqsədi ilə təşkil olunmuş videokonfransda 109 nəfər iştirak etmişdir. Tədbirdə erməni təcavüzkarlarının azərbaycanlılara qarşı törətdiyi dəhşətli cinayətlərdən, Vətən müharibəsində misilsiz qələbəmizdən bəhs edən, gəncləri tariximizi unutmamağa səsləyən çıxışlar səslənilmiş, mövzu ilə bağlı gənclərin fikirləri dinlənilmişdir.

# "Qış gecəsində doğan azadlıq günəşi"



Azərbaycan 30 ilə yaxındır ki, müstəqil dövlətdir. Otuz il əvvəl itirilmiş torpaqlarımız 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağından azad olunub. Şəhidlər Xiyabanında Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş qəhrəman Vətən övladları da dəfn edilib. Bu gün bütün şəhidlərimizin ruhları şaddır, onların qanı hədər getməyib. Xalqımız 20 Yanvar faciəsinin 31-ci ildönümünü Qarabağ Zəfərinin fonunda xüsusi qürur hissi ilə qeyd edir.

İllər keçdikcə Qanlı Yanvar hadisələrinə baxışlar dəyişir. Vaxtilə bu faciəyə görə ağlayıbsızlayır, qəm dəryasına batır, şəhid məzarlarına qərənfillər düzməklə təskinlik tapırdıqsa, indi ürəklər sonsuz qürur hissi ilə döyünür.

İnsanların gülləyə tutulduğu, tankların altında əzildiyi həmin qış gecəsi, əslində, azadlıq günəşi doğardı. Biz bunu sonradan – dövlət müstəqilliyimiz bərpa edilərkən dərk etdik. Şəhidlər tarixə azadlıq müjdəsi gətirən qaranquşlar kimi düşdü.

Ötən dövrdə Azərbaycan müqayisəolunmaz dərəcədə dəyişib. Zamanın sürətli axarında dəyişməz qalan yalnız xalqın şəhidlərə hörmət və ehtiramıdır.

# Xocavənd rayon 4 saylı tam orta məktəbinin Şəhid məzunlarına "Biz Sizi Unutmadıq" adlı tədbir keçirildi



Bu gün Xocavənd rayon 4 saylı tam orta məktəbində Şəhid məzunlar Namazov Xəyal Xudaverdi oğlu, Balakişiyev Qara Əmirxan oğlu və Quliyev Sənan Qeyrət oğlunun xatirəsinə həsr edilmiş "Biz Sizi Unutmadıq" adlı tədbir keçirildi.

hesabat-2019.qxd 08.04.2021 12:49 Page 8



***Ulu tarixi keçmişə malik olan Azərbaycan xalqı və dövlətinin keçdiyi dövlətçilik tarixi şərəflə dolu hadisələr, müharibələr və qələbələrlə zəngin olmuşdur. Torpağı, vətəni müqəddəs sayan türk xalqlarının əsl Vətəni sayılan Azərbaycan torpağı daim yadellilərin hücumlarına məruz qalmışdır. Lakin xalqımızın yetişdirdiyi igid sərkərdələr və onların ordusu düşməni əzmiş, torpaqlarımızı azad etmişdir.***

***XV yüzillik boyunca Azərbaycan dövləti daim ədalətsizliklə üzləşmiş, strateji əhəmiyyətli torpaqları əlindən alınmış mənfur düşmənlərimizə verilmişdir.***

# Tarixi ədaləti bərpa etmiş Azərbaycan ordusu və Azərbaycan xalqı



Müstəqilliyinə qovuşan Azərbaycan dövləti yenidən düşmən hücumlarına məruz qaldı. 20%-dən artıq torpağını itirdi, milyonlarla soydaşlarımız yurdundan didərgin salındı.

Düşmən bu torpaqlarda 30 il ağalıq etdi, yaşayış məskənlərimizi, tarixi abidələrimizi məhv etməklə izimizi bu yerlərdən silmək istədilər.

Heç zaman Vətənin torpaqlarının itkisi ilə barışmayan Azərbaycan xalqı və dövləti 2020-ci il sentyabrın 27-də Vətənin azadlığı üçün müharibəyə başladı.

Ali Baş Komandan, böyük sərkərdə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bütün cəbhə boyu hücum" əmri ilə başlanan müharibəni ən müasir silah və sursatlarla təchiz olunmuş, yüksək hərbi təlimlər keçmiş Azərbaycan Ordusu 44 günlük müharibədə zəfər çaldı. Düşmənin Qarabağda 30 ildə qurduğu bütün istehkamları, Ohanyan səddini məhv etdi, əsgər və zabitlərinin döyüş texnikaları ilə birgə külünü göyə sovurdu. Bütün bu qələbələri hər gün bizə yaşadan, Qarabağı bir gün də olsun görməyən, adını qəlbində əbədi həkk edən Azərbaycanın igid əsgərləri, zabitlər oldu. İgid hərbçilərimiz bir-birinin ardınca azad etdikləri Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan, Qubadlı, və Qarabağın tacı sayılan Şuşanın erməni quldurlarından təmizlənməsi sübut etdi ki, Azərbaycan Ordusu dünyanın ən güclü ordusu sıralarına daxildir.

Prezidentin "Bizim ordumuz ən müasir ordudur, biz düşməni məhv etdik, Ermənistan ordusu yoxdur!" fikri məhz Azərbaycan ordusunun Vətən müharibəsində əldə etdiyi qələbələrin nə qədər uğurlu olduğununa sübutdur. Ordumuzun Füzuli, Cəbrayıl və Hadrut ərazisində apardığı əməliyyatların bariz nümunəsi Şuşanın azad edilməsi oldu. Noyabrın 4-dən 8-nədək aparılan hərbi əməliyyatları yerinə yetirən XTQ və Azərbaycanın igid əsgərləri keçilməz meşələri, sıldırım qayaları aşaraq düşmənə zərbə vurmaqla alınmaz qala sayılan Şuşanın fəth edilməsi qəhrəman əsgər və zabitlərimizdə Vətənə sevginin nə qədər ali olduğunu sübüt etdi.

Qələbənin əldə olumasında payın yarısı da xalqımızın orduya, dövlətə dəstək olması idi.

"Ordu, dövlət və xalq" birliyi bizim Zəfər Qələbəmizin təminatçısı oldu. Müharibədə şəhidlərimiz oldu, yaralılarımız oldu. Şəhidlərimiz Şəhadətə qovuşmaqla cənnəti qazandılar. Qazilərimiz gələcək nəsillərə Vətəni necə sevməyi, qorumağı öyrədən şahidlərimiz oldu.

"Vətən sağ olsun!" - deyən hər bir əsgər və zabit ata-anası öz müdrikliyi ilə digər millətlərə nümunə oldu. Beynəlmiləl xalq kimi tanınan Azərbaycan dövlətinin hər bir vətəndaşı Vətən müharibəsinin iştirakçısı oldu və Zəfər Qələbəsinə öz payını verdi.

Budur Azərbaycan Dövlətinin çaldığı qələbənin sirri.

Azərbaycan Ordusunun əsgər və zabitlərinə əşq olsun!

Bu qəhrəmanlara daim borcluyuq: azadlığa çıxdığımız, başımızı uca tutduğumuz, torpaqlarımızın mənfur düşmənlərdən təmizlədikləri üçün.

Qarabağ Azərbaycandır!

***Telli Alıyeva,***
***Xocavənd rayon Salakətin kənd tam orta məktəbin tarix müəllimi,***
***Əməkdar müəllim***

# Rzayev Elnur Fərrux oğlu



Xocavənd Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Rzayev Elnur Fərrux oğlu 12 mart 2021-ci il tarixində dünyasını dəyişib.

Elnur Fərrux oğlu Rzayev 05. 09. 1978-ci ildə Xocavənd rayonunun Tuğ kəndində anadan olmuşdur. 1995-ci illərdə orta məktəbi bitirərək San-Marino Beynəlxaq Elmlər Akademiyası Akademik Mərkəzinin Azərbaycan Filialının Yerüstü nəqliyyat vasitələri və nəqliyyatın istismarı fakültəsinə daxil olmuşdur. 1999-2000-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. 2008-2010-cu illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin Distant və əlavə təhsil mərkəzində maliyyə və kredit ixtisası üzrə yenidən hazırlıq kursunda təhsil almışdır. 2001-ci ildən Xocavənd Rayon İcra Hakimiyyəti Başçısı Aparatında müxtəlif vəzifələrdə çalışmışdır. Elnur Rzayev Xocavənd Rayon İcra Hakimiyyəti Başçısı Aparatının Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini vəzifəsində çalışırdı. 22 iyun 2020-ci il tarixdə Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Rayon İcra Hakimiyyəti başçısının Fəxri Fərmanı və Həmkarlar ittifaqının Diplomu ilə təltif edilmişdir. Ailəli idi, iki övladı yadigar qalıb.

Xocavənd Rayon İcra Hakimiyyətinin kollektivi mərhuma Allahdan rəhmət diləyir, ailəsinə başsağlığı verir.

**Allah rəhmət eləsin!**

# Türk şirkətləri Qarabağda yenidənqurma işlərində iştirak edir



Qarabağda yaşayışın yenidən təmin olunması ilə əlaqədar ölkədə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılacaq. Bu prosesdə həm yerli, həm də xarici dost ölkələrin şirkətləri yaxından iştirak edəcək. Müharibə dönəmində Azərbaycanın haqlı mövqeyini müdafiə edən, beynəlxalq hüquqa hörmətlə yanaşan ölkələrin şirkətlərinin prosesə cəlbi həm ümumi işin keyfiyyətinə, həm də onun daha qənaətli icrasına səbəb olacaq. Azərbaycanın qarşısında bir sıra vacib məqsədlər dayanır: "Qarabağın sürətli bərpası və orada yaşayışın təmini, həmçinin bərpa prosesinin keyfiyyətli və qənaətli şəkildə həyata keçirilməsi vacib məqsədlərdəndir. Yenidənqurma və bərpa prosesi ümumi iqtisadi inkişafa təkan verəcək, yeni iş yerlərinin yaranmasına şərait yaradacaq.

Artıq Dağlıq Qarabağ problemi yoxdur. Azərbaycanın dəmir yumruğu problemə birdəfəlik son qoydu. Müharibənin başa çatmasından ötən hər bir gün Azərbaycanın şanlı qalibiyyətini dünyaya çatdırır. İndi dövlətimizin prioriteti azad edilmiş ərazilərin bərpasıdır, erməni vəhşiliyinin qurbanı olmuş şəhər və kəndlərimizin yenidən qurulmasıdır. Bu sahədə atılan hər addım, icra olunan hər bir layihə həm də qələbəmizi tərənnüm edir.

Ermənistana gəldikdə isə, müharibənin başa çatmasından ötən hər gün onun məğlub olmuş işğalçı simasını dünyaya tanıdır. Bu ölkə və onun xalqı onilliklər boyu yürüdülmüş işğal siyasətinin qurbanıdır. Ermənistanın bugünkü simasında xəstə erməni təfəkkürünün nəticəsi daha aydın görünür. Erməni cəmiyyətinin aylardır ki, davam edən siyasi burulğandan çıxması, ümumiyyətlə, mümkün görünmür. İqtisadiyyatı elə tənəzzülə uğrayıb ki, nə vaxtsa dirçəlib özünə gələcəyinə heç erməni iqtisadçılarının özləri də inanmırlar.

Bəli, bir tərəfdə müharibədə qalib gələn, torpaqlarını azad edən, ərazilərinin bərpasına başlayan məğrur Azərbaycan, digər tərəfdə isə məğlub olaraq tarixinin ən ağır günlərini yaşamağa məhkum edilən, səfalətə düçar olunan Ermənistan dayanır. Cənubi Qafqazın ən böyük reallığı budur.

Respublikamız illər öncədən Cənubi Qafqazın lideri statusuna sahib olmuşdu. İlham Əliyev Azərbaycanı bölgədə aparıcı dövlətə, dünyada söz sahibinə çevirmişdi. Bu qələbə ilə İlham Əliyev ölkəmizin daşıdığı bütün statuslarını daha da yüksəltdi. Lider dövlət və söz sahibi kimi mövqelərini möhkəmləndirdi, Azərbaycanı daha böyük zirvələrə ucaltdı. İndi Azərbaycan Cənubi Qafqazın həm də qalib dövlətidir.

Ermənistanda məğlubiyyətlə razılaşa bilməyən işğal və terror xislətli dairələr ölkənin imza atdığı kapitulyasiya bəyanatına qarşı çıxır, bundan istifadə edərək hakimiyyəti ələ keçirməyə cəhd edirlər. Aydındır ki, bu ölkədə hakimiyyətdə hansı qüvvə olsaydı, məğlubiyyətə düçar olacaqdı, çünki başqa cür ola da bilməzdi. Ona görə bu gün Ermənistanın kapitulyasiyanın şərtlərini, üçtərəfli Bəyanatda yer almış müddəaları yerinə yetirməkdən başqa yolu yoxdur. Prezident İlham Əliyev bununla bağlı deyib: "Ermənistanda hakimiyyətdə kimin olmasından asılı olmayaraq, 10 noyabr Bəyanatının icrasına mane olmaq cəhdləri bu ölkə üçün çox zərərverici olacaqdır. Mən artıq Prezident Putinin sitatını dilə gətirdim. Bu, onlar üçün sui-qəsd olacaqdır, vəziyyət bundan da qat-qat pis olacaqdır".

Məğlub Ermənistanın bu reallıqla barışmaqdan başqa çarəsi yoxdur. Hakimiyyətdə kimin, hansı siyasi qüvvənin olmasına baxmayaraq, kapitulyasiya şərtlərinə əməl etmək rəsmi Yerevanın öhdəliyidir. Əks təqdirdə Azərbaycanın dəmir yumruğunu yenidən dadacaqlar.

***Taleh Mirzəyev,***
***İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi***

Təsisçi:
Xocavənd Rayon İcra Hakimiyyəti
Baş redaktor:
Ruslan Şirinov

Hesab №: AZ73AIIB33080019444000298140
VÖEN: 7900031641
"Kapital Bank" ASC Beyləqan Filialı

Ünvan:
Yeni Xocavənd qəsəbəsi,
Tiraj:1000,
Sifariş 765

Mob: (051)720-21-71
www. Xocavend-ih.gov.az
www. Xocavendmks.com
www. Garadaghli.org

Qəzet "Xocavənd" qəzeti redaksiyası MMC-də yığılmış və səhifələnmiş "Son dakika" mətbəəsində çap olunmuşdur.